Ədalət.- 2021.- 2 oktyabr. S.4.

# Qələbəmizin nəticələrindən biri: Region ölkələrinin də marağında olan "Zəngəzur dəhlizi" nailiyyəti

**2021-ci il sentyabrın 27-də Azərbaycan üçün əlamətdar bir tarixdir, çünki ölkə 44 günlük müharibədə qələbənin birinci ildönümünü qeyd edir. Azərbaycan, ərazi bütövlüyünü bərpa edərək, Cənubi Qafqazda yeni bir dövrün - sülh və inkişaf üçün fürsət dövrünün başlanmasında əsas rol oynadı.**

Adalet.az xəbər verir ki, bu gün Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan Soçidə görüşündə "Zəngəzur dəhlizi" nin də müzakirə olunacağı xəbəri Qarabağda qazanılan qələbənin bəhrəsi hesab etmək olar

44 günlük müharibə Qarabağ münaqişəsinə son qoyduğundan, müharibədən sonrakı dövrdə tərəflərin əsas məqsədi nəqliyyat əlaqələrinin açılması və bölgədə davamlı sülhü təmin edəcək dövlət sərhədlərinin demarkasiyası-delimitasiyası yolu ilə iqtisadi münasibətlərin bərpa edilməsi olmalıdır. Bəli Azərbaycan separatizmin, terrorçuluğun , qanunsuz hərəkətlərin qarşısını almağa özünə məqsəd qoyub və diplomatiyası ilə digər dövlətləri də məqsədinə çatmaq üçün bu işə cəlb edib.

Cəlbedici rıçaqlar isə regionda sülhün və əminamanlığın sayəsində iqtisadi uğurların qazanılmasıdır. Azərbaycanın marağı odur ki, bizim ölkənin əsas hissəsini Naxçıvanla birləşdirəcək dəhliz yaransın, eləcədə Azərbaycanın Türkiyə ilə faktiki quru sərhədi əldə edilsin, Türkiyəyə yol qısalsın.

Nəqliyyat- kommunikasiya vasitəsilə dövlətlər arası ticarət mübadiləsinin möhkəmlənməsi durur.

## Zəngəzur dəhlizinin açılmasının Ermənistana xeyri

***Zəngəzur dəhlizinin açılması ilə regində çiçəklənmənin olacağını bildirən Milli Məclisin deputatı Vüqar İskəndərov bu dəhlizin açılmasının nəinki təkcə region üçün , hətta kənar dövlətlər üçün xeyirli olacağını deyir: Zəngəzur dəhlizinin yaradılması, bütün ticarət əlaqələrinin bərpası, yəni Cənubi Qafqazda uzun fasilədən sonra sülhün təmin edilməsi bizim maraqlarımıza cavab verir:***

"Dövlət başçısının qeyd etdiyi kimi bu, Ermənistanın da maraqlarına cavab verir. Çünki onlar da dəmir yolu ilə həm İranla, həm Rusiya ilə əlaqə yarada bilərlər. Bu günə qədər bu əlaqə yoxdur və onlar üçün də yeni fürsətlər ortaya çıxacaq.

Beləliklə, əgər Ermənistan bundan sonra normal şəkildə inkişaf etmək istəyirsə bir anlıq bu reallıqla barışmalı, 10 noyabr üçtərəfli Bəyanatında öz əksinin tapmış bu məsələnin həlli istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. V.İskəndərov bildirib ki, Avropa İttifaqının da müsbət yanaşdığı Zəngəzur dəhlizininin açılması region ölkələri üçün də yeni fürsət yaradacaq:




***"Beləliklə, hər şey aydındır. Ortada bir realılıq var və Ermənistanın o reallığa uyğun addım atmaqdan başqa çarəsi yoxdur. Yəni, Ermənistan vaxt itirmədən Azərbaycanla sülh müqaviləsi imzalamalı və Azərbaycanın dünya tərəfindən tanınan ərazi bütövlüyünü tanımalıdır. Əks təqdirdə isə Ermənistanı xoş gələcək gözləmir"***

## Rusiya və Türkiyədə dəhlizin açılmasında maraqlıdır

Regionda marağı böyük olan Rusiya da, Türkiyə də Zəngəzur dəhlizinin açılmasını gözləyir.

Bu haqda politoloq Oqtay Qasımov fikirlərini belə şəhr etmişdi:

Türkiyə üçün bu dəhliz ona görə maraqlıdır ki, həm Azərbaycanla, həm də Azərbaycan üzərindən Orta Asiya ilə əlaqələri sürətlənir, yol qısalır. Xüsusilə ticarət baxımından yükdaşımaların həm sürəti, həm də həcmi artmış olur.

Rusiyanın da Zəngəzur dəhlizində marağı var. Rusiya Qarabağda yerləşəndən sonra bölgədə sabitliyin olmasında maraqlıdır. Rusiya zamanında İranla anlaşaraq İrana məxsus bəzi körfəz limanlarında imtiyaz əldə edib və ora daşınmaların ən qısa yolu Culfa üzərindədir. Elə sovet dövründə də İrana daşımalar əsasən dəmiryolu vasitəsilə Culfa üzərindən həyata keçirilirdi. Yəni Rusiyanın marağına görə, həm Ermənistana yüklərin daşınması üçün bu yol açılmalı, Gümrüdəki hərbi bazasının təchizatı yaxşılaşmalı, həm də İrana daşımalar və İran üzərindən Ərəbistan yarımadası ölkələrinə, eləcədə Hindistan, Pakistan kimi ölkələrlə əlaqələr qurulmalıdır.

## Son olaraq

Prezident İlham Əliyev çıxışlarından birində maraqlı bir məqamı dilə gətirmişdi:"Müharibənin nəticələrindən biri də əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir.

Üçtərəfli Bəyanatda xüsusilə bu məsələnin əks olunması bizim, eyni zamanda, böyük siyasi qələbəmizdir. Hazırda Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində fəal işlər aparılır, bir çox təkliflər var, artıq bir çox nəqliyyat-kommunikasiya layihələri masa üzərindədir, müzakirə edilir və bu, bizim növbəti tarixi uğurumuz olacaqdır.

**Müstəqillik bizim ən böyük sərvətimizdir, ən böyük dəyərimizdir. Müstəqillik illərində biz bir amalla yaşayırdıq ki, doğma torpağımızı düşmənin əlindən alaq, işğaldan azad edək və ərazi bütövlüyümüzü bərpa edək. Biz buna nail olduq", - deyə Azərbaycan Prezidenti vurğulayıb.**

**Əntiqə Rəşid**